

# İnternetin ədəbiyyata təsiri

## Hər şey sürətlə ötüb keçirsə, gərəkdir ki...

**Rus yazıçısı Dmitri Danilov internetin ədəbiyyata güclü təsir etdiyini bildirib. Belə ki, internet yazıçılarla oxucular arasında kommunikasiya alətidir: "Ədəbi yaradıcılığa yeni başlayanlar üçün yazdıqlarını nümayiş etdirmək üçün yaxşı platformadır. Ona görə də kütləvi internet nəşrləri yaranır. Bu baxımdan, ədəbi məkan iki cəbhəyə bölünüb". Müasir dövrdə internet ədəbiyyata və ədəbi prosesə hansı səviyyədə təsir edir? Yeni janrlar və istiqamətlər yaranırmı? Fikirlər var ki, mühafizəkar yazıçılar internetə şübhə və inamsızlıqla yanaşır və onu ədəbiyyata maneə adlandırırlar. Bu barədə mübahisələr bitib-tükənmir...**

Həqiqətən internet ədəbiyyatın inkişafına əngəldir, yoxsa, yaradıcılığa təkan verir? İnternetin, ədəbi məhsulun bazarda yerbəyer olmasına yeni imkanlar açdığını faktlar təsdiqləyir, bəs ədəbi məhsulun meydana çıxmasına internetin təsiri nə qədərdir? Əlbəttə, bu təsiri danan yoxdur. Bəs internetin ədəbiyyata müsbət, yoxsa mənfi təsiri daha çoxdur?

"Müzakirə"mizdə bu suallara aydınlıq gətirməyə çalışdıq.

### MÖVZUSUNU İNTERNETDƏN GÖTÜRMÜŞ ƏSƏRLƏR

**Yazıçı-tərcüməçi Nəriman Əbdülrəhmanlı** internetin ədəbi prosesə təsirini təsdiqləyir: "Əlbəttə ki, təsir edir. Məncə, internet təkcə ədəbiyyatın deyil, zamanın simasını dəyişib, insanların bir vaxtlar məhrəm saydıqları vərdişləri və mövzuları dəyişdirib, həm də, necə deyərlər, faş eləyib. Bu cür böyük təsir qüvvəsinə malik olan bir texnoloji yenilik ədəbiyyatdan da yan keçə bilməzdi. İndi mövzusunu internetdən, internet aləmindən götürülmüş xeyli əsərlər meydana çıxıb. Məsələn polyak yazıçısı Vişnevskinin "Şəbəkə tənhalığı" romanı belələrindəndir. Hətta ədəbiyyatımızın patriarxı Çingiz Hüseynov "Oyun direktoriyası" adlı kompüter romanı qələmə alıb". Yazıçıya görə, internetin ədəbi prosesə mənfi təsiri odur ki, obrazlar və duyğular həddən artıq ultramüasir olur, təbiilikdən uzaqlaşır. Müsbət cəhəti isə internetin yazıçıya hüdudsuz informasiya verməsidir: "Hər iki təsir qaçılmazdır. Mən hələ ki, birinci təsirdən qaçmaqla məşğulam".

### YAZILANLARIN KÜTLƏVİLƏŞMƏSİNİN MƏNFİ TƏRƏFİ

**Yazıçı Elçin Hüseynbəylinin** fikrincə, internet müasir dünyada ədəbiyyatın geniş oxucu kütləsinə çatmasına kömək edir: "Ancaq belə bir məsələ də meydana çıxır: çox yerdə müəllif hüquqları qorunmur. Müəlliflərin yazılarından, özündən icazə olmadan istifadə olunur. Digər tərəfdən, sosial şəbəkələrdə kimsə yazı yazır və hamı "Nə yaxşı statusdur" - deyə fikrini bildirəndə o da bunu hekayə kimi dərc edir. Ümumiyyətlə, bir şeyin kütləviləşməsinin mənfi tərəfi çoxdur. Mənə elə gəlir ki, ədəbiyyatın geniş oxucu kütləsinə tanıdılması baxımından müsbət təsiri varsa, yazıların ədəbiyyat adına sosial şəbəkələrdə kütləviləşməsinin mənfi təsiri var. Ona görə də, son dövrlərdə nə qədər yazıçı və şair meydana çıxdı. Kiminsə bir şeirinin təsiri altına düşüb "Belə yazırsa, mən də yaza bilərəm" deyən bir qrup yaranır və bir-birlərini dəstəkləməyə başlayırlar. İnternet kütləvilik baxımından ədəbi prosesə mənfi təsir edir". Yazıçı hesab edir ki, internet ədəbiyyat adamlarının yaradıcılığına da təsirsiz ötüşmür: "Ancaq inanmıram ki, internetin təsiri ilə plagiatlığa cəhdlər olsun. Elə bir dövrdə yaşayırıq ki, kimsə bir əsəri plagiat edərsə, dərhal üzə çıxar. Əvvəllər internet yox idi. Kimsə, məsələn, ingilis və ya alman ədəbiyyatından götürüb və ya nəyisə dəyişdirib öz adına çap etdirirdi. İndi isə bu, təhlükəlidir, çünki onu gizlətmək mümkün deyil".

### ALLAHIN DİKTƏSİ

**Yazıçı Orxan Fikrətoğlu** hesab edir ki, ümumiyyətlə, internet - sosial şəbəkələr insanın zamanını alır: "Əgər yazıçılıq doğrudan da bir insanın peşəsidirsə və o, gerçəkdən yazıçıdırsa, səhərdən axşamacan sosial şəbəkələrin qarşısında vaxt keçirərsə, onda yazı yazmağa vaxt tapa bilməyəcək. Mən özüm də bir neçə dəfə bu barədə düşünmüşəm. Təbii ki, peşəsi ilə məşğul olan insan, xüsusilə yazıçı, mənə elə gəlir ki, sosial şəbəkələrdən çox istifadə etməməlidir. Çünki sosial şəbəkələr o qədər informativdir ki, insanın bütün vaxtını alır". İnternetin yaradıcı adamlara ideyalar verməsinə, fantaziyalarının gücləndirilməsinə gəlincə, yazıçı bunu inkar edir: "İnternet, texnointibah, ümumiyyətlə, elm yazıçılıqla tamamilə fərqli fazalarda yerləşən anlayışlardır. Yazıçı, məncə, məlumatı Allahdan alır. İstedadı Allahdan aldığı kimi, ona diktə olunan yazıları da Tanrı ilə və ya hansısa bir substansiya ilə əlaqədən əldə edir. Təsəvvür edirsinizmi, Tolstoy "Hərb və sülh"ü hansısa mənbədən götürüb sonra yazır? Mən bunu təsəvvür eləmirəm. Düzdür, belə yazıçılar var, məsələn, detektiv yazanlar, bazara işləyən yazıçılar belə yazır. Məncə, onlar materialları elə sosial şəbəkələrdən, internetdən götürürlər ki, onlardan da ciddi ədəbiyyat alınmır. Ancaq gerçək ədəbiyyat və gerçək yazıçı, inanmıram ki, sosial şəbəkədən yararlansın. Mən bunu ciddi qəbul eləmirəm. Məncə, ədəbiyyat poetik bir başlanğıcla bağlı olmalı, sonra peşə ilə yazılmalıdır".

### "HAZIRA NAZİR" YANAŞMALAR

"İnternet əsri sürəti ədəbiyyata təbii ki, təsirsiz ötüşmür"- deyən **tənqidçi Elnarə Akimovanın** fikrincə, bu təsir özünü daha çox ədəbi portallarda realizə edir: " Amma internet prosesi əsasən, günün ədəbiyyatını yaradır, carilik xarakterini ifadə edir. Burada ədəbiyyat daha çox informasiyaya çevrilərək təqdim olunur. Yəni konseptual mövqedən çıxış edilmir. Eləcə stixiyalı gəlişən ədəbiyyatın təqdimi üçün imkanı, konservativ, ya radikal yanaşmanı, etik-estetik, ya epataj ölçüləri təmsil edirlər. Bu da anlaşılandır. Hər şey sürətlə ötüb keçirsə, gərəkdir ki, ədəbi saytlar da ədəbi prosesi günün tempinə uyğunlaşdırsınlar, yaxınlaşdırsınlar. Burada hər mətn bir informasiya vurğusu daşıyır. Ədəbi portallarda da əsasən, prosesin ritmini göstərməyə çalışırlar. Bu mənada, internetin, xəbər bazası kimi rolu əvəzsizdir. Dünya evimizin içindədir, eyni vaxtda dörd tərəflə təmas, ünsiyyət qururuq, gedən proseslərdən anındaca məlumatlanıb yararlanırıq. Burada digər məsələ meydana çıxır. Yəni pozitivlərindən neqativlər törəyir. Qeyd etdiyim bu stixiya bir az da qaçaraqlıq qatır həyatımıza. Və bu qaçaraqlıqda düşünmək, özünə dalmaq, təmkinlə davranmaq əzmini itiririk. Hamı geri qalmamağa çalışır, sanki ləngisə, kimsə gəlib keçəsidir onu. Ona görə, yazılanlar daxili senzuradan keçmir, yazıçı etalonu deyilən bir meyar sıradan çıxmaq üzrədir. İsmayıl Şıxlı "Dəli Kür"ü on illik zaman kəsimində yazıb hasilə gətirib. Bu gündən baxanda inanılmaz, absurd kimi görünür adama". Tənqidçi prosesin digər fəsadlarına da toxundu: "İnternetin xidməti sayəsində bu gün elmi tədqiqatlarımıza adlayan "rahat mənimsəmə" mexanizmi ayrıca problemdir. Araşdırmaçılar lazım olan mövzunu tədqiq etmək, yazılı mənbələrə istinadən əsaslandırmaq, təhlilə çəkmək əvəzinə, internetdə yerləşdirilmiş, çox zaman da diletant məlumatlara əsasən yazıb meydana çıxarırlar. Bu, yalnız elmi sahəyə aid deyil, əlbəttə. Tarixi romanların əksəriyyəti "Vikipediya" məlumatlarını prozaik şəkildə təcəssüm etdirməklə yazılır, əcnəbi şair və yazıçılardan, onların əsərlərindən bəhs edilən yazıların yarısında "hazıra nazir" yanaşmaların olduğu da çağımızın həqiqətidir".









**Təranə Məhərrəmova**